Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Azərbaycanın dövlətçilik tarixinin, milli adət-ənənələrinin, elm və mədəniyyətinin təbliği**

# İrəvan, Zəngəzur və Göyçə məsələsi milli dövlətçilik tariximizin əbədi aktual mövzusudur...

**Azərbaycanın tarixi torpaqları müasir dövlət sərhədlərimiz çərçivəsi ilə məhdudlaşmır. Son 200-300 ildə yadellilər tərəfindən tarixi Azərbaycan ərazilərinin parçalanması, ayrı-ayrı xalqlara verilməsi prosesi gedib.**

Azərbaycan əraziləri yalnız Gülüstan (1813) və Türkmənçay (1828) müqavilələri əsasında bölünməyib, ondan kənarda da ərazilərimiz qanunsuz olaraq başqa xalqlara verilib. Borçalını, Dərbəndi, İrəvanı, Göyçəni, Zəngəzuru və digər ərazilərimizi bizə düşmən olanların məkrli siyasətləri nəticəsində itirmişik. Bütün dünya yaxşı bilir ki, Qafqazda ilk erməni dövləti 1918-ci ildə Azərbaycan ərazilərində qurulub, tarixi Azərbaycan, türk-müsəlman şəhəri İrəvan ermənilərin yeni yaranan dövlətinə paytaxt olaraq güzəştə gedilib.

Bu gün İrəvanın, Göyçənin, Zəngəzurun və başqa ərazilərin tarixi Azərbaycan torpağı olduğunu və onların hansı şəraitdə xalqımızdan qoparıldığını ölkə başçısı İlham Əliyev dönə-dönə vurğulayıb.

**Göyçə, Zəngəzur, İrəvan Azərbaycanın tarixi torpaqlarıdır**

"...Mən deyəndə ki, Zəngəzur qədim Azərbaycan torpağıdır, bu, həqiqətdir. Zəngəzur 1920-ci ildə Ermənistana verilmişdir - 101 il əvvəl. Ondan əvvəl o torpaq bizə məxsus idi. Onların bu gün Sevan adlandırdığı Göyçə gölünün ətrafında azərbaycanlılar yaşayıblar. Bu da bir həqiqətdir. XX əsrin əvvəlindəki xəritələrə baxsanız Sevan deyil, Göyçəni taparsınız. İrəvanla bağlı da məsələ eynidir. Onlar İrəvanın tarixi hissəsini məhv ediblər. Bunlar hamısı faktlardır. Azərbaycanlılar orada yaşamışlar, o cümlədən, mənim ulu babalarım. Bunlar hamısı faktlardır, lakin bizim ərazi iddiasında olmağımız anlamına gəlməməlidir. Bilmirəm, bunu eşitmisiniz, yoxsa yox, mən demişəm ki, biz oraya qayıdacağıq...". Bu fikirləri aprelin 13-də Prezident İlham Əliyev ADA Universitetində keçirilən "Cənubi Qafqaza yeni baxış: münaqişədən sonra inkişaf və əməkdaşlıq" adlı beynəlxalq konfransda bildirib.

Ümumiyyətlə, Prezident İlham Əliyev dəfələrlə Zəngəzurun, İrəvanın, Göyçənin tarixi Azərbaycan torpaqları olduğunu bildirib. Prezident İlham Əliyevin son zamanlar çıxışlarında İrəvan, Zəngəzur, Göyçə və digər ərazilərin tarixi Azərbaycan yurdu olduğunu tez-tez vurğulaması bizi, xüsusən də gənc nəsli öz tariximizə saygı duymağa, onu araşdırıb öyrənməyə sövq edir. Ölkə başçısı bununla bu ərazilərin ermənilərin deyil, Azərbaycanın tarixi torpağı olduğunu dünyaya bir daha xatırladır. Söz yox, dünya bu torpaqların tarixi Azərbaycan torpaqları olduğunu çox yaxşı bilir, amma Prezident bunu dəfələrlə vurğulamaqla bu tarixi yenidən dünyanın yadına salır ki, Göyçə də, Zəngəzur da, İrəvan da Azərbaycanın tarixi torpaqlarıdır.

**"Gerçək tarixi yada salmağa məcburuq"**

AVCİYA-nın vitse-prezidenti, tarix elmləri doktoru, professor Məhərrəm Zülfüqarlı "Bakı-Xəbər"ə bildirdi ki, ölkə başçısının Göyçə, Zəngəzur, İrəvanın Azərbaycanın tarixi torpaqları olduğunu dönə-dönə vurğulaması bizi öz tariximizə bağlayır və xalqımızı tarixi keçmişindən qopmağa qoymur. M.Zülfüqarlının sözlərinə görə, Azərbaycanın tarixi ərazilərinin təbliğ edilməsi, onların tarixşünaslığımızda özlərinə layiqli yer tutması vacibdir. "Azərbaycan öz dövlət müstəqilliyini bərpa etdikdən sonra BMT tərəfindən tanınmış ərazisi daxilində, heç bir dövlətə qarşı ərazi iddiası etmədən sülh şəraitində yaşamağa üstünlük verərək, quruculuq işlərinə başlayıb. Lakin görürük ki, Azərbaycanın qonşuları zaman-zaman ölkəmizə qarşı işğalçılıq siyasəti yeritməklə, əsassız ərazi iddiaları irəli sürməklə təhdidlərini davam etdiriblər. Biz də müasir dövrdə Qafqazda ən güclü dövlət olaraq bu işğalçı, separatçı qonşulara və onların havadarlarına gerçək tarixi yada salmağa məcburuq. Azərbaycan keçən əsrin 90-cı illərində bu məsələlərə qayıtmırdısa, bu da səbəbsiz deyildi. Çünki o zamanlar dövlətimiz zəif idi, elə də güclü deyildi, eyni zamanda, beynəlxalq təşkilatların bizə verdiyi yalan vədlərə inanırdıq. Amma sonra biz gördük ki, dünyada hər şeyi güc həll edir, ədaləti yalnız güclə bərpa etmək mümkündür".

**"Azərbaycan heç bir ölkəyə qarşı ərazi iddiası etməsə də, ancaq məlum ölkələrdə tarixi ərazilərimiz var"**

M.Zülfüqarlının sözlərinə görə, Azərbaycan Prezidenti Zəngəzurun, Göyçənin, İrəvanın tarixi Azərbaycan torpağı olduğunu vurğulamaqla qonşularına bir daha tarixə baxmağı diqtə edir, bildirir: "Bu nədən qaynaqlanır? Bilirsiniz ki, dünyada tarixi müharibələr olub. Ta qədimlərdən indiyə kimi müxtəlif ərazilərdə işğalçı yürüşlər olub, ərazilər zəbt edilib, qanunsuz olaraq mənimsənilib. O cümlədən də Azərbaycana qarşı belə işğalçı yürüşlər olub. Dünya üçün strateji əhəmiyyət daşıyan Azərbaycanın sərvətlərinə göz dikən qonşular, yaxud dünyanın güclü dövlətləri zaman-zaman bizə qarşı işğalçı müharibələr aparıblar. Azərbaycan xalqının böyüklüyü ondadır ki, bu cür yürüşlərə, müharibələrə, işğallara, ölkəmizə qarşı yürüdülən iyrənc və məkrli siyasətlərə baxmayaraq, özündə güc tapdı və XX əsrin sonlarına yaxın müstəqil dövlətini bərpa etdi və BMT-də üçrəngli bayrağını dalğalandırdı.

Azərbaycan heç bir ölkəyə qarşı ərazi iddiası etməsə də, ancaq məlum ölkələrdə tarixi ərazilərimiz var. Həmin tarixi ərazilərdə Azərbaycan əhalisi yaşayıb və o ərazilərin bəzilərində indi də yaşayır, amma bəzilərindən deportasiya ediliblər. Məsələn, indi Ermənistan adlandırılan Qərbi Azərbaycandan soydaşlarımız deportasiya olunublar".

**"Prezidentimiz çox düzgün olaraq bəyan etdi ki, biz İrəvana qayıdacağıq"**

M.Zülfüqarlı dedi ki, Ermənistan ərazisində yaşayan azərbaycanlılar XX əsrin müxtəlif illərində, sonuncu dəfə isə 1988-ci ildə öz doğma ocaqlarından qovulublar. Professorun sözlərinə görə, tariximizdə baş verənləri yada salmayanda, xatırlamayanda bunlar yaddan çıxıb unudulur, yeni nəsillər dünyaya başqa gözlə baxırlar. "Bu baxımdan, ölkə başçısının Zəngəzurun, İrəvanın, Göyçənin tarixi Azərbaycan torpaqları olduğunu həm qonşularımızın, həm də dünya ictimaiyyətinin yadına salması çox mühümdür. Bu məsələnin ölkə başçısı tərəfindən vurğulanması olduqca vacibdir, bunu da biz duyuruq. Məsələn, Azərbaycanın tarixi ərazilərinə gələndə Prezidentimizin də qeyd etdiyi kimi, Zəngəzur, İrəvan, Göyçə və başqa ərazilər tarixi Azərbaycan torpağıdır. Bilirik ki, Dağıstanda Dərbənd, Gürcüstanda Borçalı və digər ərazilər də tarixi ərazimizdir. Başqa yerlərin də adlarını qeyd edə bilərik. Bizim coğrafi ərazilərimiz indiki Suriya, İraq ərazisinə qədər gedir. Məsələn, Kərkük də tarixi ərazimizdir. Prezidentimiz çox düzgün olaraq bəyan etdi ki, biz İrəvana qayıdacağıq, amma demirəm ki, tank üzərində qayıdacağıq. Cənab Prezident doğru dedi ki, bizim ərazi iddiamız yoxdur, amma oralar bizim tarixi yurdumuzdur" - deyə M.Zülfüqarlı qeyd etdi.




**"Azərbaycan Prezidentinin məhz bu fikirləri gələcəkdə bu cür modelin qurulmasına..."**

M.Zülfüqarlının sözlərinə görə, Azərbaycan dünyada sülhməramlı ölkə kimi tanınır və hər zaman sülhməramlı, sülh tərəfdarı olan ölkə kimi bütün dünyaya bildirməliyik ki, İrəvan, Zəngəzur, Göyçə tarixi Azərbaycan əraziləri olmasına baxmayaraq, biz onların ilhaqı, Azərbaycana birləşdirilməsi haqqında iddia irəli sürmürük: "Amma xatırladırıq ki, bizim böyük və şərəfli tariximiz var, böyük dövlətlərimiz olub, adları çəkilən ərazilər də bizim tarixi torpaqlarımızdır. Amma Prezidentimizin təklif etdiyi yol nədir? Məsələn, indi Avropa Şurası, Avropa Birliyi və onlara daxil olan ölkələr var, tarixən bu ölkələr arasında müharibələr olub. Məsələn, İngiltərə və Fransa arasında yüzillik müharibə olub. İki dünya müharibəsində Almaniya bu müharibələri əsas başladan dövlət idi. Hətta indinin özündə də Fransa bəzi ərazilərinin Almaniyada olması ilə barışmır. Amma bu o demək deyil ki, Almaniya ilə Fransa düşməndir, yaxud müharibəyə hazırlaşır. Demək istəyirəm ki, biz bir azərbaycanlı olaraq Qafqazda sülhün tərəfdarıyıq. Hətta bilirsiniz ki, "Qafqaz evi" ideyası da var. Bunu da XX əsrin əvvəllərində Azərbaycan mütəfəkkirləri irəli sürüblər. Bu barədə hətta Üzeyir Hacıbəyovun fikirləri ilə bağlı məqalə də yazmışam. "Qafqaz evi" nə deməkdir? Azərbaycan ziyalıları, mütəfəkkirləri XX əsrin əvvəllərində Qafqazda da indiki Avropa Birliyi kimi bir birliyin yaradılmasına təşəbbüs göstəriblər. Onlar burada yaşayan xalqların mehriban, sülh şəraitində yaşamasının tərəfdarı olublar.

Bir anlığa təsəvvür edək ki, Avropa Birliyində XX əsrin əvvəllərində bir-birinə düşmən olmuş ölkələr indi tərəfdaş kimi Avropa Birliyində yaşayırlarsa, biz də bunu yarada, "Qafqaz evi" ideyasını gerçəkləşdirə bilərik. Bu, həyata keçirilərsə, bölgədə yaşayan insanların hansı ölkənin vətəndaşı olmasından asılı olmayaraq, bu ərazilərə sərbəst çıxışı olacaq. Yəni İrəvana da, Göyçəyə də gedəcəyik. Fərq olmayacaq ki, sən Qafqazın hansı respublikasında yaşayırsan, hər yerə sərbəst getmək imkanımız olacaq. Bu, bir bəşəri həqiqətdir ki, insanlar bunu yarada bilərlər. Mənə belə gəlir ki, Azərbaycan Prezidentinin məhz bu fikirləri gələcəkdə bu cür modelin qurulmasına, "Qafqaz evi" ideyasının həyata keçirilməsinə yönəlib. Yəni bu ideyanı bizim babalarımız XX əsrin əvvəllərində irəli sürüblər, "Qafqaz evi" ideyası Azərbaycan Prezidentinin "biz İrəvana da, Zəngəzura da, Göyçəyə də qayıdacağıq" fikri ilə gələcəkdə reallaşacaq. Bəli, biz İrəvana da, Göyçəyə də, Zəngəzura da qayıdacağıq, amma top-tüfənglə deyil, sülh şəraitində qayıdacağıq".

M.Zülfüqarlının sözlərinə görə, adları qeyd edilən ərazilər Azərbaycanın tarixi əraziləridir, xalqımız o torpaqlara sülh şəraitində qayıdacaq.

*İradə SARIYEVA*

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyilə çap olunur.**